# 50 yaşlı məktəb

Göyçay uşaq musiqi məktəbi ömrünün əlamətdar dövrünü yaşayır. Kollektiv bu təhsil ocağının 50 illik yubileyinə hazırlaşır.

Məktəbin direktoru Nizami Rəhmanov deyir:

- Məktəbimiz 1957-ci ildə yaradılıb. Ötən dövr ərzində çətinlikləri də çox olub, uğurları da. Bu gün burada 486 nəfər şagirdin təlim-tərbiyəsi ilə 87 nəfər müəllim çalışır. Onların hamısı öz yetirmələrimizdir. Məktəbimizdə beş ixtisas - fortepiano, skripka, tar, qarmon və kamança ixtisasları üzrə dərs keçirilir.

Halbuki məktəb yeni yaradılarkən bu göstəricilər kifayət qədər kiçik idi: iki ixtisas, üç müəllim və 60 nəfər şagird.

Bu il məktəbimizi 83 nəfər bitirir. Qabaqcıl müəllimlərimizdən Xədicə Veysəlovanın (fortepiano), Şəhla Məmmədovanın (qarmon), Xalidə Ağayevanın (skripka), Afət Məmmədovanın (fortepiano), Sevda Əhmədovanın (kamança), Təranə Rizvanovanın (fortepiano), Aydın Qafarovun (tar) və başqalarının adlarını çəkmək istərdim.

Məktəbimizdə xor, xalq çalğı alətləri orkestri, skripkaçılar ansamblı və s. fəaliyyət göstərir, rayonun bütün tədbirlərində yaxından iştirak edir. Bu mənada, rayonda keçirilən Naz bayramında çıxışımız xüsusilə uğurlu alındı, nazirlik və qonaqların xoşuna gəldi.

**X.ASLANOVA**



